# Azərbaycanın multikulturalist ənənəli dövlət siyasəti beynəlxalq münasibətlər sistemində

## *(Azərbaycanda və xaricdə keçirilən simpozium, forum, konfrans materialları əsasında)*

**(əvvəli 22 iyun tarixli sayımızda)**

Parisin 1-ci rayonunun meri Jan Fransua Löqare bu gün dünya gündəmində tolerantlıq və multikulturalizm mövzusunun beynəlxalq münasibətlərdə daha aktual olduğunu bildirdi. O, dünyəvi məsələ olan bu mövzuya Azərbaycanın göstərdiyi marağın nümunəvi xarakter daşıdığını çatdırdı.

Konfrans iştirakçılarının diqqətini Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın mövzu ilə bağlı çıxışı daha çox cəlb etdi.

Mehriban xanım ölkəmizin tarix boyu sivilizasiyaların, fərqli mədəniyyətlərin və dinlərin qovuşuğunda yerləşdiyi, Asiya ilə Avropa arasında körpü olduğunu və bu amillərin mədəniyyət müxtəlifliyinin yaranmasında mühüm rol oynadığını bildirdi. O, Azərbaycanın xalqlar, dinlər, sivilizasiyalararası dialoqun təşkilindən, tolerantlıq və multikulturalizm mövqeli dövlət siyasətindən danışaraq, konfrans iştirakçılarının nəzərinə çatdırdı ki, onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun yaxından iştirakı ilə Luvr muzeyində islam mədəniyyəti bölməsinin təşkilində, Romada katakombaların bərpasında, yəhudi uşaqlar üçün təhsil imkanlarının yaradılmasında, Strasburq və Fransanın digər regionlarındakı kilsələrin təmirində Fond yaxından iştirak edib.

Bu, sözün geniş mənasında, xalqları birliyə, sosial ədalətə, qarşılıqlı etimada, tolerantlığa və multikulturalizmə çağırış formasıdır.

Konfransda iştirak edən ölkəmizin milli azlıqları təşkil edən etnik qrupların nümayəndələri də bu beynəlxalq əhəmiyyətli tədbirdə Azərbaycanın tolerantlıq və multikulturalist mövqeli siyasətindən bəhs etdilər.

Belə ki, Azərbaycanın dağ yəhudiləri dini icmasının sədri Milix Yevdayev çıxışında ölkəmizdə yəhudilərin 7 sinaqoqunun, 2 orta məktəbinin, 1 kollecinin, 3 uşaq bağçasının və yəhudi evinin fəaliyyət göstərdiyini bildirdi.

Daha sonra Fransa Müsəlman Şurasının vitse-prezidenti Fofiq Septi ölkəmizdəki tolerantlıq mühitinin onda böyük maraq doğurduğunu, bunun canlı şahidi olmaq istədiyini bildirdi. Roma Katolik Kilsəsinin Azərbaycandakı apostol prefekturasının ordinarisi Vladimir Fekete Azərbaycan katolikləri üçün də yaradılan münbit şəraitdən istifadə edərək dini ayinləri sərbəst yerinə yetirdiklərini və onlar üçün katolik kilsəsinin tikildiyini qeyd etdi.

Təbiidir ki, bütün bunlar Azərbaycan tolerantlığının və multikulturalizminin, müxtəlif xalqları, dinləri və sivilizasiyaları birliyə və dialoqa çağıran multikulturalist siyasətinin ən bariz nümunəsidir.

Adı çəkilən konfransda Azərbaycanın birinci xanımı Mehriban Əliyeva toplantı iştirakçıları qarşısında çıxış edərək müasir dövrdə tolerantlıq və multikulturalizmdən xalqlar, dinlər, mədəniyyət və sivilizasiyalar arasındakı dialoq problemlərindən, bu problemlərin müasir ictimai-siyasi şəraitdə oynadığı həlledici rolundan bəhs etmişdir.

Bu tarixi çıxışı biz də tam şəkildə oxucuların diqqətinə çatdırmaq istərdik. Xanım Mehriban Əliyeva demişdir:

"Azərbaycan tarix boyu sivilizasiyaların, mədəniyyətlərin, dinlərin qovuşuğunda yerləşib. Ölkəmiz Asiya ilə Avropa arasında təbii bir körpüdür. Əlbəttə, bu coğrafi yerləşmə ölkəmizdəki mədəni müxtəliflikdə öz rolunu oynamışdır. Əsrlər boyu bu qədim diyarda müxtəlif dinlərin, mədəniyyətlərin, millətlərin, etnik qrupların nümayəndələri sülh və əmin-amanlıq şəraitində bir ailə kimi yaşamışlar.

Biz minilliklərlə cəmiyyətimizdə formalaşan tolerantlığı və dözümlülük ənənələrini müstəqilliyimizi bərpa etdikdən sonra da qoruyub saxlamışıq və daha da möhkəmləndirməyə çalışırıq.

Azərbaycan o nadir ölkələrdən biridir ki, eyni zamanda, həm İslam Əməkdaşlıq Təşkilatının, həm də Avropa Şurasının üzvüdür. Azərbaycan dünyəvi müsəlman ölkəsidir. İslam bizim müqəddəs dinimizdir və biz öz dinimizə, öz ənənələrimizə, öz köklərimizə böyük hörmətlə yanaşırıq. Biz öz mədəni, dini və tarixi irsimizlə fəxr edirik. Dünyanın ən qədim məscidlərindən biri olan, 743-cü ildə tikilmiş məscid Azərbaycanın Şamaxı şəhərində yerləşir. Dünyanın ən qədim kilsələrindən biri olan Qafqaz Alban kilsəsi Azərbaycanın digər çoxəsrlik tarixi olan Şəki şəhərinin yaxınlığında yerləşir. Pravoslav və katolik kilsələri, sinaqoqlar, atəşpərəstlər məbədi — bütün bunlar Azərbaycanın mədəni irsinin tərkibidir. Biz öz ənənələrimizə, öz köklərimizə, öz tariximizə çox böyük hörmətlə yanaşırıq. Eyni zamanda, biz dünyaya açığıq və bütün ölkələrlə əməkdaşlıq qurmağa çalışan bir ölkəyik.

Bu gün Azərbaycanda digər azadlıqlar kimi, dini azadlıqlar da tam şəkildə təmin edilir. Azərbaycan çoxmillətli, çoxkonfessiyalı ölkədir. Ölkəmizdə bütün xalqların, bütün dinlərin, bütün etnik qrupların nümayəndələri eyni hüquqlara malikdirlər. Əlbəttə, bu, ölkənin Konstitusiyası ilə təsbit olunub, lakin reallıq da belədir.

Azərbaycan xalqında olan dözümlülük, əsrlər boyu formalaşan bu mühit ona gətirib çatdırıb ki, bizim üçün bu, normal yaşayış, həyat tərzidir. Heç zaman Azərbaycanda dini, milli zəmində heç bir qarşıdurma, yaxud anlaşılmazlıq olmayıb və yoxdur. İctimai-siyasi quruluşdan asılı olmayaraq bütün dövrlərdə Azərbaycanda xalqlar qarşılıqlı hörmət və anlayış şəraitində yaşayıblar.

Bu sahədə düşünülmüş dövlət siyasəti, cəmiyyətdə formalaşmış dözümlülük, tolerantlıq ənənələri və əlbəttə, ölkəmizin son illər çox sürətli iqtisadi inkişafı dünyada yayılan radikalizm və dini ekstremizm meyillərinin qarşısını almaq üçün ən əsas amillərdir. Bu gün Azərbaycanda bütün dinlərin, millətlərin və etnik qrupların nümayəndələri ölkəmizin inkişafına öz töhfələrini verməkdədirlər. Azərbaycan əhalisinin 96 faizini müsəlman, 4 faizini xristian, yəhudi və digər dinlərin nümayəndələri təşkil edir. Respublikamızda 597 dini icma var, onlardan 21-i qeyri-müsəlman icmasıdır. Misal üçün, bütün dünyada dağ yəhudilərinin yığcam halda yaşadığı yeganə yaşayış məntəqəsi Azərbaycanın Quba rayonunda Qırmızı qəsəbədir.

Dövlət-din münasibətləri Azərbaycanda xüsusi yer tutur. Tolerantlıq ənənələrini qoruyub saxlamaq dövlət siyasətinin əsas prioritetlərindən biridir. Ölkəmizdə məscidlərin, katolik, pravoslav kilsələrin, sinaqoqların təmiri və tikintisini dövlət öz üzərinə götürür və bu sahədə heç bir ayrı-seçkilik yoxdur. Mən əminəm ki, hər bir insanın digər dinə hörməti öz dinindən başlayır və hər bir cəmiyyətin gücü onun dini və milli müxtəlifliyindədir.

Təsadüfi deyil ki, son illər multikulturalizm, sivilizasiyalararası dialoq, mədəniyyətlərarası dialoq mövzularına həsr olunmuş bir çox beynəlxalq tədbirlər məhz Azərbaycanda, onun paytaxtı Bakıda keçirilir.

Hesab edirəm ki, müsbət meyillərin güclənməsi üçün dünyada belə görüşlər, açıq müzakirələr və fikir mübadiləsinə ehtiyac böyükdür. Əfsuslar olsun ki, biz bir çox hallarda bunun əksini görürük. Yaxın Şərqdə, Avropada, digər yerlərdə dini amil əsasında müharibələr, münaqişələr, qanlı toqquşmalar baş verir. Bəzi hallarda görürük ki, dini nifrət süni şəkildə yaradılır. Dünyanın müxtəlif yerlərində etnik və dini zəmində zorakılığın şahidi oluruq. Bu ilin əvvəlində Parisdə baş verən faciəvi hadisələri hamımız yaxşı xatırlayırıq. Əlbəttə, bu meyillər, dünyada gedən proseslər bizim hamımızı narahat edir. Lakin bu gün yalnız narahat olmaq kifayət deyil. Fikrimcə, siyasətçilərin, ictimai xadimlərin, beynəlxalq təşkilatların və xüsusən də medianın bu məsələlərdə məsuliyyəti artmalıdır.

Ekstremizm və terrorçuluğa qətiyyətlə "yox!" deməklə biz cəmiyyətlərimizdə dözümlülük, sülhsevərlik, tolerantlıq dəyərlərinin təbliğinə geniş fikir verməliyik. Multikulturalizmin alternativi yoxdur. Son zamanlar bununla bağlı müxtəlif fikirlər, bəzən pessimist ideyalar səslənir. Amma bunun alternativi nədir? Ayrı-seçkilik, ksenofobiya, islamofobiya, antisemitizm kimi təhlükəli amillərdir ki, bəşəriyyət tarixində sivilizasiyaların və xalqların fəlakətinə səbəb olub.

Dərin multikulturalizm köklərinə malik ölkə kimi Azərbaycan qlobal arenada bu dəyərlərin təşviqi üçün vacib rolunu oynamağa hazırdır. Ölkəmiz müxtəlif dini, mədəni və tarixi abidələrin qorunub saxlanılmasına da öz töhfəsini verir. 2012-ci ildə Parisdə dünyanın ən böyük muzeyi olan Luvr muzeyində İslam mədəniyyəti bölməsi açılmışdır. Azərbaycan bu bölmənin yaradılmasına öz töhfəsini vermişdir. Bu, əslində bizim bütün İslam mədəniyyətinə verdiyimiz töhfədir.

Heydər Əliyev Fondunun dəstəyi ilə Romada müqəddəs katakombalar bərpa edilir. Vatikan tarixində ilk dəfədir ki, müsəlman ölkəsində fəaliyyət göstərən təşkilat Romada müqəddəs xristian abidələrinin bərpasına kömək edir. Paytaxt Bakıda yaşayan yəhudi uşaqlar üçün Fondun dəstəyi ilə "Xabad-Or-Avner" təhsil mərkəzi inşa edilib. Həmçinin, Fond Azərbaycanda yerləşən katolik, pravoslav kilsələrin, sinaqoqların təmirinə öz töhfəsini verir.

Məmnuniyyətlə qeyd etmək istərdim ki, Heydər Əliyev Fondu Fransada bir neçə iri layihə həyata keçirib. 2005-ci ildə Fond Strasburq Kafedral Kilsəsinin bərpasına maliyyə yardımı göstərib. Fond Fransanın müxtəlif regionlarında qədim kilsələrin bərpasında iştirak edir. Aşağı Normandiya regionunda 20-yə yaxın katolik kilsəsinin bərpasına Fond öz dəstəyini göstərib. Bütün bunlar sülh, dözümlülük, humanizm dəyərlərinin təbliği və təşviqinə, xalqlararası və dinlərarası əlaqələrin möhkəmlənməsinə xidmət edir.

Əfsuslar olsun ki, ölkəmiz və xalqımız müasir tarixdə etnik təmizləmə və soyqırımı ilə üzləşib. Azərbaycan qonşu Ermənistan tərəfindən təcavüzə məruz qalıb.

Torpaqlarımızın 20 faizi işğal altındadır, bir milyon soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Xocalı şəhərində bir gecə ərzində 613 dinc vətəndaş — qadınlar, qocalar, uşaqlar vəhşicəsinə öldürülüb. Azərbaycanın işğal olunmuş torpaqlarında 876 tarixi, mədəni və dini abidə mövcud idi və demək olar ki, onların hamısı tamamilə məhv edilib.

Bütün bunlara baxmayaraq, biz çalışırıq ki, münaqişə sülh yolu ilə öz həllini tapsın. İstəyirik ki, bölgədə regional əməkdaşlıq inkişaf etsin, millətlərarası münasibətlər daha da yaxşılaşsın, dinlərarası dialoq genişlənsin. Azərbaycan gələcəkdə də digər ölkələrlə bərabər, bu ümumbəşəri dəyərlərin qorunmasına öz töhfəsini verməyə hazırdır".

Göründüyü kimi, çıxışda Azərbaycanın birinci xanımı tərəfindən həm ölkəmizdə yaşayan və milli-etnik baxımdan azlıq təşkil edən xalqlara qarşı bəslənən, beynəlxalq hüququn prinsiplərinə cavab verən humanist və ümumbəşəri münasibətin, onlara qarşı tolerant və multikulturalist ənənəli dövlət siyasətinin mənzərəsi, həm də ölkəmizdən çox-çox uzaqlarda, fərqli milli-etnik mənşəli, dini etiqadlı xalqlara və dövlətlərə qarşı aparılan dövlət siyasətinin mahiyyəti çox inandırıcı formada əks olunmuşdur. Fikrimizcə, bu faktların özü tarixi həqiqətdir və bəşəriyyətin gözü qarşısında baş verən reallıqlardır. Bütün bunlar dövlətimizin multikulturalist ənənəli dövlət siyasətinin parlaq nümunəsidir.

Etiraf edək ki, bütün bunlar ölkəmizin həyata keçirdiyi siyasətin son həddi deyildir: proses davam edir.

Azərbaycanda dövlət siyasəti forması kimi təbliğ olunan multikulturalist ənənələrin beynəlxalq aləmdə yaratdığı təsir gücü və təbliği məsələsi bununla məhdudlaşmır. Zəmanəmizin ən aktual məsələləri kimi həyata keçirilən bu dövlət siyasəti multikulturalizmin dövlət siyasəti forması kimi ölkəmizin sərhədlərini gündən-günə aşmağa və daha çox tərəfdarlar qazanmağa başlamışdır.

Buna aid də beynəlxalq əhəmiyyətli nüfuzlu bir tədbiri xatırlayıb yada salmaq yaxşı olardı.

17 noyabr 2015-ci ildə Parisdə UNESCO-nun Baş konfransının 38-ci sessiyasının Liderlər Forumunun keçirilməsini qeyd edək. Bu konfransda da Azərbaycan Prezidenti İlham Əliyev yaxından iştirak etmiş və geniş məruzə ilə çıxış etmişdir. Azərbaycan Prezidentinin nitqində qaldırdığı məsələlərə diqqət yetirək.

Azərbaycan Prezidenti öz çıxışında 13 noyabr 2015-ci ildə Parisdə baş verən dəhşətli terror hadisəsi ilə bağlı Azərbaycan xalqı adından Fransa xalqına və dövlət başçısına dərin hüznlə başsağlığı verdi. Daha sonra İlham Əliyev müasir dövrdə dünya xalqlarını təlatümdə saxlayan bir sıra aktual məsələlərə diqqət yetirdi və onların obyektiv və real qiymətini verdi.

Azərbaycan Prezidenti dünya xalqlarını böyüklüyündən və kiçikliyindən asılı olmayaraq, onların yaratmış olduqları tarixi, mədəni dəyərləri və sivilizasiyaları, din və dini etiqad formalarını dialoqa, birgə əməkdaşlığa çağırdı. O eyni zamanda bu birliyin və əməkdaşlığın həyata keçirilməsində tolerantlığın və multikulturalizm ənənələrinin dövlət siyasəti formasındakı rolundan xüsusi bəhs etdi.

***(davamı növbəti saylarımızda)***


**Azadə QULİYEVA,**
**AMEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun Beynəlxalq münasibətlər və beynəlxalq hüquq şöbəsinin elmi işçisi.**
**Həsən HÜSEYNOV,**
**İnstitutun dinşünaslıq və mədəniyyətin fəlsəfi məsələləri şöbəsinin aparıcı elmi işçisi.**